# Qalib ordunun zəfər yürüşü




***Yüz illərin o üzündən qopub gələn və milli mövcudluq anlayışı ifadə edən müdrik bir kəlam Xalq yazıçısı Anarın "Dədə Qorqud" kinossenarisində ulu ozanın dili ilə belə səslənib: "Torpağı qorumadınsa–əkib-becərməyə dəyməz, əkib-becərmədinsə–qorumağa dəyməz".***

Azərbaycan tarixində ağır sınaqlardan çıxan bu həqiqət ötən il sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsində bir daha öz təsdiqini tapdı. Əsrlərdən üzü bəri Vətən kimi qorunub saxlanılan əmanətə xalqımızın necə sevgi, məhəbbət hissi ilə yanaşdığı özünü bir daha qabarıq büruzə verdi.

Xalqımız erməni faşistlərinin xəyanəti- torpaqlarımızın 20 faizinin 30 il işğalda saxlanılması ilə heç vaxt barışmadı. Düşmənin 1991-ci ilin sonlarında SSRİ-nin dağılması nəticəsində öz müstəqilliyini yenidən bərpa edən Azərbaycanda yaşanan mürəkkəb ictimai-siyasi şəraitdən namərdcəsinə yararlanaraq, qəsbkarlıq yolunu tutması, soydaşlarımızı doğma yurd-yuvalarından didərgin salması insanlarımızı "qisas qiyamətə qalmaz" ümidi ilə yaşatdı.

Nəhayət, o gün gəldi. İkinci Qarabağ savaşında Azərbaycan Ordusunun vətənpərvər, cəsur və mərd oğulları tərəfindən cəbhədə bir-birinin ardınca uğurlar əldə edildi, döyüş şücaəti, qətiyyəti göstərildi.

Vətən müharibəsinin başlandığı gündən tarixi zəfər salnaməsinin ilk səhifələri uğurla yazıldı. Hər bir vətəndaşımızda olan ruh yüksəkliyi, orduya inam sarsılmaz Azərbaycan Ordusunu parlaq qələbəyə ruhlandırdı.

O günlər hamı əmin idi ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə silahlı qüvvələrimiz düşməni tez bir zamanda doğma torpaqlarımızdan qovacaq, bizə zəfər bayramı, qələbə sevinci yaşadacaq.

***(ardı 6-cı səhifədə)***

# Qalib ordunun zəfər yürüşü

(əvvəli 1-ci səhifədə)

Azərbaycanın Ermənistana qarşı apardığı mübarizə cənab Prezidentimizin dediyi kimi, haqq mübarizəsi, haqq davası idi. Çünki işğala məruz qalan, bir milyondan artıq soydaşı qaçqın və məcburi köçkün vəziyyətində yaşayan, 20 faiz torpağı işğal altında olan məhz Azərbaycan idi.

Hələ Aprel döyüşləri və Tovuz hadisələri zamanı xalqımızın nümayiş etdirdiyi birlik bir daha hər birimizi yurd-yuvasından didərgin düşən məcburi köçkünlərimizin gec-tez öz əzəli torpaqlarına qayıdacaqlarına inandırdı. Ötən il sentyabrın 27-də törədilən erməni təxribatından sonra isə Böyük Qələbənin, Böyük Qayıdışın reallaşması üçün ciddi zəmin yarandı. Cənab İlham Əliyevin bu savaşla bağlı xalqa müraciəti, hərbi vəziyyətin və qismən səfərbərliyin elan edilməsindən sonra gənclərimizin yüksək ovqatla döyüş meydanına yollanmaları, Ali Baş Komandana ünvanlanan çoxsaylı müraciətlər vətənpərvərlik hissi ən yüksək səviyyədə olan Azərbaycan xalqının uzun illər qəlbində yaşatdığı müqəddəs arzunun çin olacağından xəbər verirdi.

"Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" Müharibənin ilk günündə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətində səsləndirdiyi bu fikirlər də yuxarıda qeyd edilənlərin parlaq ifadəsi idi.

İkinci Qarabağ müharibəsində ordumuzun işğalçı Ermənistanın silahlı qüvvələrinin təxribatına cavab olaraq həyata keçirdiyi əks-hücum əməliyyatları bütün cəbhəboyu uğurla davam etdi. Əsgər və zabitlərimizin fədakarlığı, yenilməz döyüş əzmi və qazandığı qələbələr xalqda böyük ruh yüksəkliyi yaratdı.

Ordumuzun maddi-texniki təchizatı dövlət tərəfindən yüksək səviyyədə təmin olunsa da, əksər vətəndaşlar, o cümlədən müəssisə və təşkilatlar həmin günlərdə Silahlı Qüvvələrimizə hərtərəfli dəstəyi mənəvi borc saydı, hər kəs bu istiqamətdə əlindən gələni əsirgəmədi.



Ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf yoluna qədəm qoyan Azərbaycan Silahlı Qüvvələri bu gün müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında öz xalqına tarixi qələbəni bəxş etmiş şanlı orduya çevrilib. Aparılan uğurlu siyasət və görülən davamlı tədbirlər sayəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasında qərarlaşıb. Silahlı Qüvvələrimizin müasir texnika ilə təchizatı, müntəzəm olaraq keçirilmiş təlimlər, ordumuzun döyüş potensialının gücləndirilməsi, hərbi sənayenin yaradılması və idxaldan müəyyən dərəcədə asılılığın azaldılması – bütün bunlar məqsədyönlü şəkildə aparılan siyasətin tərkib hissəsi kimi İkinci Qarabağ savaşında uğurumuzu şərtləndirib.

Ölkəmizin hərbi potensialı getdikcə güclənir. Azərbaycan Ordusu Cənubi Qafqazın ən qüdrətli ordusudur. Silahlı Qüvvələrimiz döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedir. Ötən 18 ildə ölkəmizin müdafiə sisteminin möhkəmləndirilməsi, orduda aparılan islahatlar və bunun nəticəsi olaraq baş verən keyfiyyət dəyişiklikləri Ali Baş Komandan İlham Əliyevin bu sahədəki davamlı fəaliyyətinin məntiqi nəticəsidir. Silahlı Qüvvələrimiz maddi-texniki təchizat, döyüş hazırlığı və döyüş ruhu baxımından tam üstünlüyə malikdir. Ordumuz istənilən tapşırığı yerinə yetirmək iqtidarındadır. Azərbaycan əsgər və zabiti daim yüksək mənəvi psixoloji keyfiyyətlər nümayiş etdirir.

Bu gün Silahlı Qüvvələrimiz artıq dünyada, həm də düşməni kapitulyasiya aktına imza atmağa məcbur etmiş qüdrətli ordu kimi tanınıb. Əldə olunan böyük qələbə ilə Ermənistanın işğalçılıq siyasətinə son qoyulub. Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına bütün dünya Azərbaycanın şanlı qələbəsinin şahidi olub. Müxtəlif dairələrdən olan müntəzəm təzyiq və təhdidlərə rəğmən Azərbaycan öz haqq savaşında zəfər çalıb. Bu zəfər sayəsində "Ermənistanın güclü ordusu var" və"erməni xalqı döyüşkən xalqdır" kimi miflərə birdəfəlik son qoyulub.

Silahlı Qüvvələrimiz hazırda dünyada ən yaxşı döyüş qabiliyyətinə malik ordulardan biri hesab edilir. Ölkələrin hərbi potensialının dəyərləndirilməsi ilə məşğul olan qurumların vaxtaşırı dərc etdiyi reytinqlərə əsasən, Azərbaycan Ordusu dünyanın aparıcı 50 ordusu sırasındadır.

Aparıcı Qərb mətbu orqanlarında, habelə ABŞ-ın Milli Müharibə Kollecinin (National WarCollege) və Seton Hall Universitetinin Diplomatiya və Beynəlxalq Münasibətlər Məktəbinin analitik nəşrlərində Azərbaycan Ordusunun hərbi taktikası öyrənilərkən belə qənaətə gəlinib ki, hərbçilərimiz qarşısında hətta dünyanın aparıcı ölkəsi olsaydı belə onun da döyüşü udmaq üçün heç bir şansı olmayacaqdı.

İkinci Qarabağ müharibəsi zamanı istifadə olunan döyüş taktikası dünya hərb tarixində yenilik hesab olunur və müvafiq ali hərbi məktəblərin dərsliklərinə salınaraq öyrənilir. ABŞ Hərbi Akademiyası və Pentaqonun rəsmiləri tərəfindən Azərbaycan Ordusunun hərbi əməliyyatlarının öyrənilməsi zərurəti qeyd edilir.

Azərbaycan əsgərinin sarsılmaz iradəsi gənclərimiz üçün nümunədir. Yaralanan əsgərin yarası hər bir azərbaycanlının yarasıdır. Hər bir şəhid xalqın unudulmaz qəhrəmanıdır.

Şəhid ailələri diqqət mərkəzində saxlanılır. Azərbaycan şəhid ailələrinə göstərilən diqqətə görə dünya miqyasında nümunə kimi göstərilir. Qarabağ müharibəsində həlak olan qəhrəman övladlarımızın ailələri tam miqyasda evlərlə, mənzillərlə təmin olunur. Qarabağ qazilərinə də dövlət tərəfindən lazımi dəstək verilir, onların məişət problemləri həll edilir.

Bütün bunlar təsadüfi deyil. Çünki Azərbaycan əsgəri böyük qəhrəmanlıq, şücaət göstərib, Vətən uğrunda şərəflə vuruşaraq, öz adını Azərbaycanın şanlı tarixinə yazdırıb.

Vətən müharibəsində qələbə münasibətilə medal və ordenlərin təsis olunması zəfərin əbədiləşdirilməsi və iştirakçılara göstərilən ali diqqətin təcəssümüdür. Azərbaycan Respublikası ərazilərinin düşməndən təmizlənməsi zamanı hərbi əməliyyatlarda igidlik və şücaət nümayiş etdirən, vəzifə borcunu ləyaqətlə və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirən Silahlı Qüvvələrin hərbi qulluqçularının Prezident, Ali Baş Komandan İlham Əliyevin müvafiq sərəncamları ilə müxtəlif orden və medallarla təltif olunmaları bunun bariz ifadəsidir.

**Vaqif BAYRAMOV,**
**"Xalq qəzeti"**

Xalq qəzeti.- 2021.- 23 noyabr.- S.1;6.